2024

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# YANVAR

## Azərbaycanda Maliyyə Forumu keçirilib




ASA, ABA, AMFA, AzFina və AFBİA-nın birgə təşkilatçılığı ilə "Azərbaycan Maliyyə Forumu" keçirilib. Forumun "Sığorta bazarının inkişaf perspektivləri" adlı xüsusi panelində sektorun mövcud vəziyyəti və hədəfləri müzakirə olunub. Müvafiq paneldə ASA-nın Müşahidə Şurasının sədri/"PAŞA Sığorta" şirkətinin İdarə Heyətinin sədri Ülviyyə Cabbarovanın "Yerli sığorta bazarının yeni inkişaf meyilləri", "PAŞA Həyat Sığorta" şirkətinin İdarə Heyətinin sədri Niyaz İsmayılovun "Həyat sığortası bazarında müasir çağırışlar", "Qala Sığorta" və "Qala Həyat Sığorta" şirkətlərinin Direktorlar Şurasının sədr müavini Aydın Rəhmanovun "Sığorta sektorunun sağlamlaşdırılması və trendlər" və İcbari Sığorta Bürosunun İcraçı direktoru Rəşad Əhmədovun "Sığorta bazarına ictimai inamın artırılmasında icbari sığortanın rolu" mövzularında çıxışları dinlənilib. Tədbirin sonunda Bəyanat qəbul olunub.

## Azərbaycan-Özbəkistan arasında sığorta münasibətləri müzakirə olunub



ASA və yerli sığortaçılardan ibarət nümayəndə heyəti Özbəkistanın paytaxtı Daşkənd şəhərinə səfər çərçivəsində Özbəkistan Peşəkar Sığorta Bazarı İştirakçıları Assosiasiyası ilə görüşüb. Görüşdə Azərbaycan-Özbəkistan arasında sığorta sahəsində əlaqələrin formalaşdırılması, assosiasiyalar arasında münasibətlərin inkişafı imkanları geniş müzakirə olunub. Görüşdə həmçinin Türk Dünyası Sığorta Birliyinin ASA tərəfindən hazırlanmış "Yol xəritəsi"ndən irəli gələn tədbirlərin həyata keçirilməsində birgə əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

## "Azərsığorta" ləğv edildi

Prezident İlham Əliyev Dövlət Sığorta Kommersiya Şirkətinin və "Azərsığorta" ASC-nin fəaliyyətinin təşkili haqqında 16 iyul 2022-ci il tarixli fərmanının ləğv edilməsi barədə fərman imzalayıb. Fərmana əsasən, "Azərsığorta" ləğv edilib.

Müvafiq Fərman əsasında AMB-nin İdarə Heyətinin 14 fevral 2024-cü il tarixli qərarı ilə səhmdar cəmiyyətinə sığorta fəaliyyətinə verilmiş 14 oktyabr 2009-cu il tarixli, 000270 nömrəli lisenziya ləğv olunub.

AZƏRSIĞORTA
Sizin dövlət sığortanız

## "Post-konflikt ərazilərin bərpasına doğru inamlı addımlar" mövzusunda seminar keçirilib

ASA-nın dəstəyi və "Xəmsə" Sığorta və Təkrarsığorta Brokeri" MMC-nin təşkilatçılığı ilə "Post-konflikt ərazilərin bərpasına doğru inamlı addımlar" mövzusunda seminar keçirilib. Yerli sığortaçıların dinləyici kimi iştirak etdiyi seminarda beynəlxalq mütəxəssislərin təcrübələrinə əsaslanan çıxışları dinlənilib təqdimatları nümayiş olunub.




## ASA-nın Müşahidə Şurasında dəyişiklik olub

İctimai Birliyin təsisçilərinin iclası keçirilib. İclasın gündəliyində duran məsələ Birliyin Müşahidə Şurasının üzvü olan və Azərbaycan Prezidentinin 2023-cü il 31 yanvar tarixli Fərmanı ilə ləğv edilən Azərbaycan Dövlət Sığorta Kommersiya Şirkətinin yerinə yeni üzvün müəyyən edilməsi olub. Razılığı alınaraq namizədliyi irəli sürülən "Meqa Sığorta" ASC-nin üzvlüyü səsverməyə çıxarılıb və yekdilliklə dəstəklənib.

## Türkiyədə avto-icbari növ üzrə sığorta haqqı artırıldı

Türkiyənin Sığorta və Fərdi Pensiya Nəzarət və Tənzimləmə Qurumunun (SEDDK) 18 yanvar 2024-cü il tarixli Qərarına əsasən, cari ilin fevral ayından etibarən Türkiyə ərazisində “Avtomobil Yolları Avtonəqliyyat vasitələri İcbari Məsuliyyət Sığortası” növü üzrə tətbiq olunan baza sığorta haqları 10% həcmində artırılır.

## Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyası: ”İqlim riskləri aktual olaraq qalır”

Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyası (IAIS) tərəfindən dərc edilmiş Qlobal Sığorta Bazarı – 2023 hesabatına əsasən, iqlim riskləri sığorta şirkətləri üçün narahatlıq mənbəyi olmaqda davam edir. Bu da sığortaçıların gəlirliliyinə və kapitalının idarə edilməsinə problemlər yaradır. Hesabatda təbii fəlakətlərlə bağlı gözlənilən zərərin artımının təkrarsığorta bazarlarına da mənfi təsir göstərə biləcəyi bildirilir.

## Bu il aktual olacaq risklər açıqlandı – “Allianz Risk Barometer 2024”

“Allianz Commercial” tərəfindən həyata keçirilən illik qlobal biznes riskləri sorğusu olan “Allianz Risk Barometer”-in 13-cü buraxılışı yayımlanıb. 92 ölkədən 3 mindən çox risk ekspertinin rəyi ilə hazırlanan bu hesabata görə, 2024-cü ildə qlobal miqyasda şirkətlər üçün ən böyük risk sistem texnologiyalarına kiber-hücumlar və məlumatların pozulması kimi kiber hadisələrdir. Hesabata istinadən 2024-cü il üzrə ehtimal olunan TOP-10 risk siyahısını diqqətinizə çatdırırıq.

| № | Risk | Ehtimal dərəcəsi |
|---|---|---|
| 1 | Kiber-risklər | 36% |
| 2 | İşin dayanması halı | 31% |
| 3 | Təbii fəlakətlər | 26% |
| 4 | Qanunvericilikdə gözlənilməz dəyişikliklər | 19% |
| 5 | Makroiqtisadi proseslər | 19% |
| 6 | Yanğın və partlayış | 19% |
| 7 | İqlim dəyişikliyi | 18% |
| 8 | Siyasi və terror riskləri | 14% |
| 9 | Dəyişən bazar şərtləri | 13% |
| 10 | Bacarıqlı işçi qüvvəsinin azalması | 12% |

## "AzSığorta" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***11 449 AZN***



## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: AVSMMİS*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***5 000 AZN***

## "Qala Sığorta" ASC



*Sığorta növü: Avtomobillərin kompleks sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***5 748 AZN***



## "Qala Həyat" Sığorta Şirkəti ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: İstehsalat xarakterli zəhərlənmə*
*Sığorta məbləği:* ***40 277, 93 AZN***

"Meqa Həyat Sığorta" ASC



*Sığorta növü: Qrup halında sığorta*
*Sığorta hadisəsi: Sığortaolunanın xəsarət alması*
*Sığorta məbləği: **18 000 AZN***



"Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği: **58 410 AZN***

"PAŞA Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği: **24 492 AZN***

# "Xalq Sığorta" ASC - 19

Şirkət 2005-ci il yanvar ayının 26-da rəsmi dövlət qeydiyyatından keçib. 20-dən artıq könüllü, 3 icbari sığorta növünün satışını həyata keçirməklə sığorta xidməti göstərən "Xalq Sığorta" ASC-nin nizamnamə kapitalı 58 milyon 750 min 500 manat təşkil edir.

Çoxşaxəli filial şəbəkəsinin sayəsində Şirkət Azərbaycan Respublikasının bütün ərazisində müştərilərin maraqlarının mühafizəsini təmin edə bilir. Partnyor və müştərilər qarşısında öhdəliklərin vaxtlı vaxtında həyata keçirilməsi sığorta bazarında Şirkətə nüfuzlu ad və hörmət qazandırmışdır ki, yerli və xarici sığorta və təkrarsığorta şirkətləri ilə uzunmüddətli güvənli əməkdaşlıq əlaqələri bunu bir daha sübut edir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun fəal üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq "Xalq Sığorta" ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

Xalq Sığorta
Biz varıq!



| Sığorta sinifləri | 2022 | | 2023 | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| **Könüllü sığortalar üzrə - cəmi:** | **728,071.0** | **337,633.2** | **888,104.3** | **479,252.5** | **22 %** | **42 %** |
| **Həyat sığortası üzrə, o cümlədən:** | **425,089.0** | **244,706.3** | **545,203.2** | **294,793.4** | **28 %** | **20 %** |
| Həyatın yaşam sığortası | 396,687.2 | 242,078.3 | 504,992.7 | 292,552.0 | 27 % | 21 % |
| Həyatın ölüm halından sığortası | 25,852.2 | 2,519.5 | 32,931.7 | 2,030.2 | 27 % | -19 % |
| Əmək qabiliyyətinin sığortası | 1,208.2 | 48.3 | 1,928.5 | 146.6 | 60 % | 204 % |
| Sağalmaz xəstəliklərdən sığorta | 1,341.3 | 60.2 | 5,350.3 | 64.6 | 299 % | 7 % |
| **Qeyri-həyat sığortası üzrə, o cümlədən** | **302,982.0** | **92,926.9** | **342,901.1** | **184,459.2** | **13 %** | **98 %** |
| **Şəxsi sığorta, o cümlədən:** | **121,325.4** | **70,951.1** | **132,021.7** | **83,086.6** | **9 %** | **17 %** |
| Tibbi sığorta | 112,260.0 | 70,222.1 | 121,010.9 | 82,367.7 | 8 % | 17 % |
| Xaricə səfər edən vətəndaşların sığortası | 5,173.9 | 509.7 | 6,022.2 | 543.2 | 16 % | 7 % |
| Fərdi qəza və xəstəlik sığortası | 3,891.5 | 219.3 | 4,988.6 | 175.7 | 28 % | -20 % |
| **Əmlak sığortası, o cümlədən:** | **181,656.6** | **21,975.8** | **210,879.4** | **101,372.5** | **16 %** | **361 %** |
| **Əmlakın sığortası, o cümlədən:** | **156,997.6** | **21,886.6** | **182,726.9** | **101,191.2** | **16 %** | **362 %** |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 21,527.3 | 74.8 | 22,169.9 | 448.3 | 3 % | 499 % |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 66,350.7 | 1,428.4 | 74,928.1 | 75,415.2 | 13 % | 5180 % |
| Avtonəqliyyat vasitələrinin sığortası | 42,097.6 | 16,754.8 | 54,871.4 | 20,432.7 | 30 % | 22 % |
| Yüklərin (nəqliyyat) sığortası | 5,428.4 | 42.0 | 5,987.7 | 210.8 | 10 % | 402 % |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 5,598.1 | 1,085.4 | 3,951.2 | 1,079.8 | -29 % | -1 % |
| Su nəqliyyat vasitələrinin sığortası | 6,452.5 | 821.4 | 7,555.3 | 109.6 | 17 % | -87 % |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 72.5 | 0.0 | 60.5 | 0.0 | -17 % | |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 9,209.0 | 1,679.6 | 12,943.3 | 3,494.7 | 41 % | 108 % |
| **Əmlakın sığortası ilə bağlı digər siniflər, o cümlədən:** | **261.4** | **0.0** | **259.3** | **0.0** | **-1 %** | |
| **- Işçilərin dələduzluğu sığortası** | **261.4** | **0.0** | **259.3** | **0.0** | **-1 %** | |
| **Mülki məsuliyyətin sığortası, o cümlədən:** | **22,317.0** | **89.0** | **23,847.0** | **176.5** | **7 %** | **98 %** |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 6,776.8 | 0.0 | 5,028.2 | 14.7 | -26 % | |
| Ümumi mülki məsuliyyətin sığortası | 11,768.6 | 34.4 | 13,459.6 | 124.6 | 14 % | 262 % |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 1,817.2 | 54.6 | 2,930.1 | 37.2 | 61 % | -32 % |
| Peşə məsuliyyətinin sığortası | 922.4 | 0.0 | 1,300.6 | 0.0 | 41 % | |
| Işəgötürənin məsuliyyət sığortası | 851.7 | 0.0 | 894.4 | 0.0 | 5 % | |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 44.4 | 0.0 | 131.5 | 0.0 | 196 % | |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 135.9 | 0.0 | 102.5 | 0.0 | -25 % | |
| **Kredit sığortası, o cümlədən:** | **1,899.9** | **0.2** | **3,829.9** | **4.9** | **102 %** | **2647 %** |
| Kreditlərin sığortası | 1,899.9 | 0.2 | 3,829.9 | 4.9 | 102 % | 2647 % |
| Qarışıq maliyyə risklərinin sığortası, o cümlədən: | 442.1 | 0.0 | 475.5 | 0.0 | 8 % | |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 442.1 | 0.0 | 475.5 | 0.0 | 8 % | |
| **İcbari sığortalar üzrə - cəmi:** | **242,751.7** | **95,569.3** | **334,432.8** | **108,072.4** | **38 %** | **13 %** |
| **Həyat sığortası üzrə** | **73,895.2** | **3,407.7** | **84,041.1** | **3,943.1** | **14 %** | **16 %** |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 73,895.2 | 3,407.7 | 84,041.1 | 3,943.1 | 14 % | 16 % |
| **Qeyri-həyat sığortası üzrə** | **168,856.5** | **92,161.6** | **250,391.8** | **104,129.3** | **48 %** | **13 %** |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 113,843.6 | 90,280.4 | 170,929.5 | 97,909.0 | 50 % | 8 % |
| Daşınmaz əmlakın icbari sığortası | 53,979.7 | 1,095.2 | 78,201.5 | 5,726.5 | 45 % | 423 % |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 914.2 | 29.8 | 1,152.8 | 22.0 | 26 % | -26 % |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 96.0 | 0.0 | 81.3 | 0.0 | -15 % | |
| Digər icbari sığorta növləri | 23.1 | 756.2 | 26.7 | 471.9 | 16 % | -38 % |
| **Yekun** | **970,823** | **433,202** | **1,222,537** | **587,325** | **26 %** | **36 %** |




Azərbaycan sığorta bazarında 2023-cü ilin yekun nəticəsini 2022-ci ilin yekun nəticəsi ilə müqayisə etdikdə, sığorta haqlarının 26% artaraq 970,823 min manatdan, 1,222,537 min manata qədər yüksəldiyi müşahidə olunur.

2023-cü ildə Azərbaycanın sığorta bazarının böyüməsində 3 istiqamət mühüm rol oynayıb: Həyat sığortası, əmlak sığortası və mülki məsuliyyətin sığortası. Həyat sığortası növü üzrə sığorta haqlarında artım 120 milyon AZN, əmlak sığortası istiqamətində 57 miyon AZN, şəxsi sığorta istiqamətində isə 24 milyon AZN olmuşdur.

Təqdim olunan qrafiklərdən də görünür ki, 2023-cü ildə sığorta haqlarının həcmi 2022-ci illə müqayisədə 26%, ödənişlər isə təxmini 36% artıb. Lakin ödənişlər barəsində nəticə çıxarmazdan əvvəl, ödənişlərin strukturunu nəzərdən keçirmək vacibdir. Ödənişlərin bu qədər kəskin artımının əsas səbəbi əmlak sığorta növü istiqamətində ödənişlərin artımıdır. 2023-cü ildə bütün ödənişlərin 51%-i həyat sığortasının, 49%-i isə qeyri-həyat növlərinin payına düşürdü.






Bazar payı
(sığorta ödənişləri üzrə 2022)




Bazar payı
(sığorta ödənişləri üzrə 2023)




2022-ci və 2023-cü illərin yekun müqayisəsinə əsasən, yığımlarda könüllü sığorta növlərinin 160 milyon AZN artaraq sığorta bazarının 73% hissəsini əhatə etdiyi görünür. Ödənişlərin bölgüsündə isə könüllü sığorta üzrə ödənişlərin bazar payının 81% hissəsini əhatə etdiyi müşahidə olunur.

Könüllü TOP 5 – 2023
Sığorta haqlars üzrə




Könüllü TOP 5 – 2023
Sığorta ödənişləri üzrə



İcbari TOP 3 – 2023
Sığorta haqları üzrə

İcbari TOP 3 – 2023
Sığorta ödənişlər üzrə




Təqdim olunan qrafiklərdən də müşahidə etmək olar ki, 2022-ci illə müqayisədə 2023-cü ildə həyatın yaşam sığortası növünün payı 130 mln manat artmış və TOP 5 könüllü sığorta məhsulları arasında 61% təşkil etmişdir. Bu göstərici sığorta ödənişlərində 57% təşkil etmişdir.

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2022-2023 haqlar)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 108,305.5 |
| 2 | Həyatın ölüm halından sığortası | 7,079.5 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 720.3 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 4,009.0 |
| 5 | İBHİS | 10,145.8 |



# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2022-2023 ödənişlər)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 50,473.7 |
| 2 | Həyatın ölüm halından sığortası | -489.3 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 98.3 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 4.3 |
| 5 | İBHİS | 535.4 |




2023-cü ildə həyat sığortası məhsulları Azərbaycanın sığorta bazarının böyüməsinə təkan verən liderlərdən idi. 1.222 milyon AZN yığımın 51%-i, yəni 629 milyon AZN-i bu sığortası sinifinin payına düşdü. Həyat sığortası sinifi üzrə bütün yığımların 80%-ni həyatın yaşam sığortası, 5%-ni həyatın ölüm halından sığortası təşkil edir. Sığorta bazarının inkişafına təkan verən növbəti məhsul İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (İBHİS) növüdür.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA (2022-2023 haqlar)

| Sığorta növü | Dinamika (min manatla) | |
|---|---|---|
| Tibbi sığorta | 8,750.9 | 8% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 848.4 | 16% |
| Fərdi qəza və xəstəlik sığortası | 1,097.1 | 28% |
| Əmlakın sığortası,  o cümlədən: | 25,729.3 | 16% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 642.6 | 3% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 8,577.4 | 13% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 12,773.8 | 30% |
| Yüklərin (nəqliyyat) sığortası | 559.4 | 10% |
| Su nəqliyyat vasitələrinin sığortası | 1,102.9 | 17% |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 3,734.3 | 41% |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 1,530.0 | 7% |
| Ümumi mülki məsuliyyətin sığortası | 1,691.0 | 14% |
| AVSMMS | 1,112.9 | 61% |
| Peşə məsuliyyətinin sığortası | 378.2 | 41% |
| Işəgötürənin məsuliyyət sığortası | 42.7 | 5% |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 87.2 | 196% |
| Kreditlərin sığortası | 1,930.0 | 102% |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 33.5 | 8% |
| AVSMMİS | 57,085.9 | 50% |
| Daşınmaz əmlakın icbari sığortası | 24,221.8 | 45% |
| DƏİMMS | 238.6 | 26% |
| Digər icbari sığorta növləri | 3.7 | 16% |

| | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| -29% | Kənd təsərrüfatı heyvanlarının sığortası | -1,646.9 |
| -17% | Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | -12.0 |
| -1% | İşçilərin dələduzluğu sığortası | -2.1 |
| -26% | Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -1,748.6 |
| -25% | Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -33.3 |
| -15% | Sərnişinlərin icbari fərdi qəza sığortası | -14.7 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2022-2023 ödənişlər)

| Sığorta növü | Dinamika (min manatla) | |
|---|---|---|
| Tibbi sığorta | 12,145.6 | 17% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 33.5 | 7% |
| Əmlak sığortası, o cümlədən: | 79,396.7 | 361% |
| Əmlakın sığortası, o cümlədən: | 79,304.6 | 362% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 373.5 | 499% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 73,986.7 | 5180% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 3,677.9 | 22% |
| Yüklərin (nəqliyyat) sığortası | 168.8 | 402% |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 1,815.1 | 108% |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 87.5 | 98% |
| Ümumi mülki məsuliyyətin sığortası | 90.2 | 262% |
| Kreditlərin sığortası | 4.7 | 2647% |
| İcbari sığortalar üzrə - cəmi: | 12,503.1 | 13% |
| Avsmmis | 7,628.6 | 8% |
| Daşınmaz əmlakın icbari sığortası | 4,631.3 | 423% |

| | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| -20% | Fərdi qəza və xəstəlik sığortası | -43.6 |
| -1% | Kənd təsərrüfatı heyvanlarının sığortası | -5.6 |
| -87% | Su nəqliyyat vasitələrinin sığortası | -711.8 |
| -32% | AVSMMS | -17.4 |
| -26% | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | -7.8 |
| -38% | digər icbari sığorta növləri | -284.4 |

# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Qeyri-həyat Sığorta Şirkətləri | 2022 | | 2023 | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 24,628 | 12,827 | 21,117 | 15,333 | -14 % | 20 % |
| 2 | "AtaSığorta" ASC | 5,312 | 5,395 | 9,638 | 3,210 | 81 % | -41 % |
| 3 | "Atəşgah" Sığorta Şirkəti ASC | 29,761 | 15,808 | 44,866 | 16,627 | 51 % | 5 % |
| 4 | Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti | 16,433 | 20,088 | 28,861 | 16,654 | 76 % | -17 % |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 14,464 | 4,893 | 19,928 | 32,275 | 38 % | 560 % |
| 6 | "AzSığorta" ASC | 11,081 | 9,438 | 8,473 | 7,330 | -24 % | -22 % |
| 7 | "Bakı Sığorta" ASC | 6,344 | 2,491 | 4,934 | 2,986 | -22 % | 20 % |
| 8 | "İpək Yolu Sığorta" ASC | 20,520 | 184 | 16,514 | 620 | -20 % | 236 % |
| 9 | "Meqa Sığorta" ASC | 21,129 | 6,749 | 33,856 | 8,969 | 60 % | 33 % |
| 10 | "PAŞA Sığorta" ASC | 215,132 | 66,907 | 293,091 | 144,012 | 36 % | 115 % |
| 11 | "Qala Sığorta" ASC | 40,355 | 6,023 | 64,356 | 9,620 | 59 % | 60 % |
| 12 | "Xalq Sığorta" ASC | 42,274 | 27,466 | 24,073 | 22,055 | -43 % | -20 % |
| 13 | "Aqrar Sığorta" ASC | 14,136 | 2,390 | 16,749 | 4,405 | 18 % | 84 % |
| Lisenziyası ləğv edilmiş sığortaçılar | | 10,269 | 4,430 | 6,839 | 4,492 | -33 % | 1 % |
| YEKUN | | 471,839 | 185,088 | 593,293 | 288,588 | 26 % | 56 % |

Ödənişlərə münasibətdə 2023-cü ildə vəziyyət növbəti qrafikadakı kimidir. Sığorta ödənişlərinə görə bazarda 66% pay ilə PAŞA Sığorta Qrupu birinci yerdə qərarlaşdı. İkinci yeri 9% payla Atəşgah Sığorta Qrupu, üçüncü yeri Qala Sığorta Qrupu 7% payla, dördüncü yeri 3.2%-lə Meqa Sığorta Qrupu tutdu. Xalq Sığorta Qrupu 2.8% payla beşinci yerdədir. Beləliklə, biz bazar üzrə bütün sığorta ödənişlərinin 88%-nin 10 sığorta şirkətinin əlində cəmləşdiyini görə bilirik.

Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)







Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2022 | | 2023 | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 53466 | 29993 | 71584 | 25683 | 34 | -14 |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 8574 | 420 | 9979 | 3487 | 16 | 730 |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 21242 | 2326 | 25357 | 3387 | 19 | 46 |
| 4 | "Meqa Həyat" Sığorta ASC | 2404 | 9 | 4857 | 15 | 102 | 64 |
| 5 | "PAŞA Həyat Sığorta" ASC | 413298 | 215366 | 517467 | 266164 | 25 | 24 |
| YEKUN | | 498984 | 248114 | 629244 | 298736 | 26 | 20 |

## Həyat sığorta şirkətləri TOP- 5 (sığorta haqları üzrə)






## Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



ASA
AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az